*UOT 37.01.*

# BƏDİİ MƏTNLƏRİN TƏDRİSİNDƏ İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİNİN TƏHLİLİ

**Nigar Məhərrəm qızı Həsənli**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0001-9640-2236
**E-mail:** nigarhesenli080@gmail.com

***Açar sözlər:*** *uədii mətnlər, interaktiv təlim metodları, interaktiv öyrənmə, metodların tətbiqi, təhlil*
***Ключевые слова:*** *literary texts, interactive teaching methods, interactive learning, application of methods, analysis*
***Key words:*** *художественные тексты, интерактивные методы обучения, интерактивное обучение, применение методов, анализ*

Müasir dövrdə aparılan tədris prosesi sadəcə akademik biliklərin mənimsədilməsi ilə məhdudlaşmır, həm də uşaqların mənəvi-əxlaqi keyfiyyətlərinin, estetik zövqünün və ünsiyyət bacarıqlarının formalaşmasına yönəlir. İbtidai siniflərdə oxu dərslərində şagirdlərə müxtəlif janrlardan olan mətnlər təqdim olunur:

1. Bədii mətnlər (nağıl, hekayə, təmsil, şeir və s.)
2. Elmi-məlumat xarakterli mətnlər  [1, s.304]

Bədii mətnlərin tədrisi xüsusi pedaqoji əhəmiyyət daşıyır. Bədii əsərlər vasitəsilə şagirdlər yalnız oxuma və yazma bacarığı qazanmır, həm də milli-mədəni dəyərlərlə tanış olur, təfəkkür və təxəyyülləri inkişaf edir.

Bədii mətnlər (nağıl, hekayə, təmsil, şeir və s.) uşaqların yaş səviyyəsinə və idrak imkanlarına uyğunlaşdırılmış sadə, anlaşılan və tərbiyəvi məna daşıyan hekayə, nağıl, şeir və ya dialoq mətnləri nəzərdə tutulur. I–IV siniflərdə tədris olunan bədii əsərlər şagirdlərə vətən, xalq, insanların zəhməti, gündəlik yaşayışı və cəmiyyətdə baş verən hadisələr haqqında ilkin təsəvvürlər qazandırır. Bu mətnlər vasitəsilə onlar dövlətin uca məqsədlərini, sülh və sabitlik uğrunda aparılan mübarizəni, həmçinin müasir dövrdə xalqımızın göstərdiyi qəhrəmanlıq nümunələrini dərk edirlər.

Bədii mətnlərin öyrədilməsi ilə şagirdlərə aşağıdakılar aşılanır: Dil bacarıqlarının inkişafı; Düşüncə və təxəyyülün formalaşması; Əxlaqi və mənəvi dəyərlərin aşılanması; Estetik zövqün tərbiyəsi; Milli-mənəvi kimliyin möhkəmləndirilməsi; Sosial və emosional bacarıqların inkişafı.

İnteraktiv təlim metodları şagirdlərin düşünmə qabiliyyətinin formalaşdırılması və inkişafına xidmət edir və bu metodlar dərsin hər bir mərhələsində məqsədəuyğun şəkildə tətbiq oluna bilər. Bədii mətnlərin tədrisində aşağıdakı interaktiv təlim metodlarından istifadə olunur:

1. “Şaxələndirmə” (Klaster)
2. “Venn diaqramı”
3. “Beyin həmləsi” (Əqli hücüm)
4. “Proqnozlaşdırılmış oxu 1”
5. “Suallar”
6. “Anlayışın çıxarılması”

İnteraktiv təlim metodlarından istifadə dərsin mərhələləri və dərsin formaları üzrə aparılır. Dərs prosesində bir neçə interaktiv təlim metodundan istifadə edilə bilər. Azərbaycan dili II sinif dərsliyində verilmiş **“Padşah və Müəllim”** hekayəsi üzərində interaktiv təlim metodlarının tətbiqi və təhlili:

Gözəl bir yaz səhəri idi. Padşah adamları ilə vətənə qayıdırdı. Camaat hörmətlə padşahı qarşılayırdı. Adamlar əllərindəki çiçək dəstələrini padşaha vermək istəyirdilər. Padşahın yanında müəllimi də var idi. Padşah heç bir zaman müəlliminin qarşısına keçməzdi. Asta-asta arxasınca gedərdi.

Hamı padşahdan irəlidə gedən müəllimi padşah hesab edib çiçəkləri ona verməyə çalışırdı. Müəllim atını bir qədər geriyə çəkdi. Gözucu padşahı göstərib dedi: Padşah odur, çiçəkləri ona verin!

Bunu görən padşah müəllimini işarə edib dedi: Doğrudur, padşah mənəm, amma o, padşahın müəllimidir. Çiçəkləri ona verin. [5, s.27]

**“Suallar” metodu.** Bu metod şagirdlərin idrak fəallığını artırmaqla yanaşı, onların təfəkkürünün inkişafına, biliklərin mənimsənilməsinə və xüsusilə tədqiqat prosesinin qurulmasına mühüm təsir göstərir. Düzgün yönləndirilmiş suallar tədqiqatın başlanmasına stimul verir və şagirdi düşünməyə sövq edir. Dəqiq sual formalaşdırmaq və əldə olunan məlumatları müqayisə etmək bacarıqları isə məntiqi və tənqidi düşüncənin inkişafına şərait yaradır. Sual vermənin keyfiyyətini qiymətləndirmək üçün əsasən; sualların sayı, məntiqi ardıcıllığı, orijinallıq dərəcəsi, təsviri və ya daha dərindən düşünmə tələb edən sual növləri.

Məzmunu anlama sualları:

1. Padşah haraya qayıdırdı və camaat onu necə qarşılayırdı?
2. Padşahın yanında kim var idi?

**“Venn diaqramı”.** Venn diaqramı obyektlər arasındakı oxşar və fərqli xüsusiyyətlərin dairə formasında, sxem üzərində qarşılaşdırılaraq nümayiş etdirilməsinə imkan yaradan bir üsuldur. Bu metod həm böyük qrup, həm də kiçik qruplarla aparılan tapşırıqlarda effektiv şəkildə tətbiq oluna bilər. Tətbiqetmə mərhələsində istifadə olunur.




**“Anlayışın çıxarılması”.** Anlayışın çıxarılması metodu əşya və ya anlayışın müəyyən əlamətlər əsasında tapılmasını təmin edən bir üsuldur. Tapılacaq anlayış əvvəlcədən bir vərəqə yazılır və sual işarəsi olan başqa bir vərəqlə örtülür. Onun altında isə həmin anlayışa aid ən azı iki əsas əlamət qeyd olunur. Şagirdlərə belə sual verilir: “Bu əlamətlər hansı anlayışı ifadə edir? Tapmağa çalışın.” Əgər şagirdlər göstərilən əlamətlərə əsasən anlayışı müəyyən etməsələr,

müəllim əlavə əlamətlər əlavə edir. Şagirdlər anlayışı dəqiqləşdirənə qədər proses davam etdirilir. Bu zaman çox mücərrəd əlamətlərdən istifadə edilməməlidir. Bu metod daha çox motivasiya mərhələsində tətbiq olunur.




**Şaxələndirmə" (Klaster).** Şaxələndirmə metodu məlumatlar arasındakı məzmun əlaqələrinin sxematik şəkildə təsvir olunmasına xidmət edir. Bu metod həm də semantik xəritə adlanır. Motivasiya, tədqiqatın aparılması, nəticələrin çıxarılması və yaradıcı tətbiqetmə mərhələlərində istifadə olunur. Böyük və kiçik qruplarda, cütlərlə və fərdi şəkildə aparılır.




Aparılan tədqiqat göstərir ki, bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqi təlim prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm pedaqoji amil kimi çıxış edir. İnteraktiv yanaşma bədii mətnin yalnız süjet və obrazlar səviyyəsində deyil, eyni zamanda ideya-məzmun, estetik və semantik qatlarda mənimsənilməsinə şərait yaradır. Bu metodlar şagird və tələbələrin bədii mətni passiv şəkildə qavramasından fəal interpretasiya mərhələsinə keçməsini təmin edir.

Təhlil nəticəsində müəyyən olunmuşdur ki, müzakirə, debat, rol oyunu, problem əsaslı təlim, qrup işi və layihə metodu kimi interaktiv üsullar bədii mətnlərin tədrisində analitik və tənqidi düşünmə bacarıqlarının formalaşmasına müsbət təsir göstərir. Bu metodlar öyrənənlərin mətnə emosional və intellektual münasibətini gücləndirir, obrazların psixoloji xüsusiyyətlərini, müəllif mövqeyini və bədii dil vasitələrinin funksional rolunu daha dərindən anlamağa imkan yaradır.

Araşdırma sübut edir ki, interaktiv təlim metodlarının tətbiqi öyrənənlərin nitq bacarıqlarının, mətnlə işləmə vərdişlərinin və müstəqil fikir formalaşdırma qabiliyyətinin inkişafına xidmət edir. Eyni zamanda bu yanaşma bədii mətni mədəni və dəyəryönlü kontekstdə qavramağa şərait yaradaraq oxu mədəniyyətinin və estetik zövqün formalaşmasına töhfə verir.

Nəticə etibarilə, bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının sistemli və məqsədyönlü tətbiqi ədəbiyyat dərslərinin səmərəliliyini artırır, təlim prosesini öyrənənmərkəzli müstəviyə keçirir və müasir pedaqoji tələblərə cavab verən, tənqidi düşüncəyə malik, yaradıcı fərdin formalaşmasına imkan yaradır.

**Problemin aktuallığı.** İnformasiya cəmiyyətində şagirdlərin passiv qavrayıcıdan fəal iştirakçıya çevrilməsi tələbi interaktiv təlim metodlarının tətbiqini zəruri edir. Ənənəvi tədris modellərinin bədii mətni yalnız mətnin məzmununu ötürmə vasitəsinə çevirməsi şagirdlərin yaradıcı düşüncə potensialını məhdudlaşdırır. Bu isə müasir kurikulumun tələb etdiyi kommunikativ, analitik və koqnitiv bacarıqların formalaşmasında ciddi boşluqlar yaradır. İnteraktiv metodların tətbiqi bədii mətnlərlə işləmə prosesini əməkdaşlıq, dialoq, fərdi və qrup yaradıcılığına əsaslanan çevik bir mühitə çevirərək təlim nəticələrinin keyfiyyətini yüksəldir. Şagirdlərdə həmçinin mütaliə motivasiyasını artırır.

**Problemin elmi yeniliyi.** Məqalədə bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqi sistemli və müqayisəli şəkildə təhlil olunur. Tədqiqat interaktiv təlim prosesində müəllim–şagird qarşılıqlı fəaliyyətinin rolunu elmi cəhətdən əsaslandırır. İnteraktiv metodların şagirdlərin bədii mətni anlama, təhlil etmə və interpretasiya bacarıqlarına təsiri konkret meyarlar üzrə qiymətləndirilir. Müxtəlif interaktiv metodların (diskussiya, beyin həmləsi, klaster və s.) bədii mətnlərin təhlilinə verdiyi töhfələr müqayisəli şəkildə araşdırılır. İnteraktiv metodların tətbiqi zamanı yaranan pedaqoji çətinliklər və onların aradan qaldırılması yolları elmi əsaslarla müəyyənləşdirilir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqaləni orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Cəfərova. N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. (Dərslik). Bakı-2016, ADPU-nəş.403 s.
2. Rəhimov, A. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı Qızlar Universitetinin nəşri, Bakı 2015, 472 s.
3. Kərimov. Y.Ş. Təlim prosesində yeni texnologiyalar. Bakı: Mütərcim, 2011. – 368 s.
4. Kərimov. Y.Ş. Təlim metodları (dərs vəsaiti). Bakı, 2009. -279 s.
5. Nurullayeva. Ü. Zahidova. Ş. Azərbaycan dili – tədris dili fənni üzrə 2-ci sinif üçün dərslik. Bakı, 2021.
6. Veysova. Z. Fəal- İnteraktiv təlim (müəllimlər üçün vəsait). Bakı, 2007. -156 s.

**H.M.Həsənli**

**Bədii mətnlərin tədrisində interaktiv təlim metodlarının tətbiqinin təhlili**
**Xülasə**

İnteraktiv təlim metodları şagirdlərin mətni yalnız oxumasına deyil, onu anlama, təhlil etmə və şəxsi mövqeyini formalaşdırmasına şərait yaradır. Qrup işi, beyin həmləsi və müzakirələr şagirdlər arasında əməkdaşlıq və ünsiyyət bacarıqlarının inkişafını təmin edir. İnteraktiv yanaşma bədii obrazların, ideya və mövzuların daha dərindən qavranılmasına kömək edir. Şagirdlər passiv dinləyici deyil, aktiv iştirakçı kimi çıxış edir, fikirlərini bölüşür, müzakirələr aparır və tapşırıqları birgə həll edirlər. İnteraktiv təlim metodlarının tətbiqi həm tədris prosesinin effektivliyini, həm də şagirdlərin fərdi inkişafını təmin edən kompleks pedaqoji mexanizm kimi qiymətləndirilir.

**Н.М.Гасанли**

**Анализ применения интерактивных методов обучения при преподавании художественных текстов**
**Резюме**

Интерактивные методы обучения позволяют учащимся не только читать текст, но и понимать, анализировать его и формировать собственную точку зрения. Работа в группах, мозговые штурмы и обсуждения способствуют развитию навыков сотрудничества и коммуникации у учащихся. Интерактивный подход помогает глубже усвоить литературные образы, идеи и темы. Ученики не являются пассивными слушателями; они активно участвуют, делятся мнениями, принимают участие в обсуждениях и совместно выполняют задания. Применение интерактивных методов обучения выступает как комплексный педагогический механизм, обеспечивающий как эффективность учебного процесса, так и индивидуальное развитие учащихся.

**N.M.Hasanli**

**Analysis of the application of interactive teaching methods in the instruction of literary texts**
**Summary**

Interactive teaching methods enable students not only to read the text but also to understand, analyze, and form their own perspectives. Group work, brainstorming, and discussions contribute to the development of students’ collaboration and communication skills. The interactive approach helps to gain a deeper understanding of literary characters, ideas, and themes. Students are not passive listeners; they actively participate, share their opinions, engage in discussions, and solve tasks together. The application of interactive teaching methods serves as a complex pedagogical mechanism that ensures both the effectiveness of the educational process and the individual development of students.

**Redaksiyaya daxil olub:** 26.02.2026